# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# II SESSİYASI İCLASININ

# PROTOKOLU № 21

*Milli Məclisin iclas salonu.*
*30 iyun 2020-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***S.Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 106 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.07 dəq.) |
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).
2. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).
3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

4. “Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

5. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

6. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

7. “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

**Qeyd:** 2020-ci ilin mart ayında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 koronavirusunun törətdiyi yoluxucu xəstəliyi pandemiya elan etmişdir. Bu pandemiyaya qarşı ölkəmizdə həyata keçirilən tədbirlərlə əlaqədar Milli Məclisin 20 deputatı plenar iclas salonunun lojasında əyləşdiyinə görə əl qaldırmaqla səs vermişdir.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**2. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**4. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**5. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fəzail İbrahimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**6. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**7. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **S.QAFAROVA**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*30 iyun 2020-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri! Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.07 dəq.) |
| İştirak edir | 82 |
| Yetərsay | 83 |

Şakir müəllim, məlumat verin.

**Ş.Şabanov,** *Milli Məclis Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsi müdirinin müavini.*

Qeydiyyatdan 18 deputat keçmişdir.

**Sədrlik edən.** Çox sağ olun. Yetərsay var. Biz iclasa başlaya bilərik. Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına da münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim.

**Ş.Şabanov**. Lehinə 18 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun. Gündəlik qəbul edildi. Hörmətli həmkarlar, gündəlik ətrafında müzakirəyə ehtiyac varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Gündəliyin məsələlərinə keçək. Qeyd edim ki, hörmətli həmkarlar, gündəlikdə 7 məsələ var və bu məsələlərin hamısı üçüncü oxunuşda olan qanun layihələridir. Onu da qeyd edim ki, ilk dörd məsələ, yəni 1-ci, 2-ci, 3-cü və 4-cü məsələlər cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 2-ci məsələsi "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, 3-cü məsələsi "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, 4-cü məsələsi isə "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələridir. Bu qanun layihələri məzmun və mahiyyətcə bir-birinə yaxındır. Ona görə təklif edirəm ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili layihələrə dair ümumi

məlumat versin. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, xanım Sədr. Sizin də qeyd etdiyiniz kimi, hər dörd qanuna edilən dəyişiklik elektron, notariat və elektron məhkəmə sistemlərinin digər informasiya sistemləri ilə məlumat mübadiləsi üçün qanuni əsas yaratmaq məqsədi daşıyır. Qeyd edim ki, bu dəyişiklik həm də vətəndaşların dövlət orqanına müraciətini minimuma endirmək və dövlət orqanlarının vətəndaşlardan tələb etdiyi informasiyanı bir-birindən almaq imkanı yaradacaqdır. Əvvəlki oxunuşlarda da millət vəkilləri bunu dəstəkləmişdilər və bu oxunuşda da qanun layihəsini dəstəkləmələrini həmkarlarımdan xahiş etmək istərdim. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə, ümumiyyətlə, qanun layihələrinin hamısına Hüquq siyasəti və dövlət quruculuğu, Əmək və sosial siyasət, Aqrar siyasət komitələrində də baxılıb. Komitələrdən kimin isə əlavəsi varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən, sözü olan var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Hörmətli həmkarlar, mən qanun layihələrini səsə qoyuram. Xahiş edirəm, Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, saydınız, orada neçədir?

**Ş.Şabanov**. Lehinə 19 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, indi isə “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, hazırsınız? Məlumat verin.

**Ş.Şabanov**. Lehinə 19 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, xahiş edirəm, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim.

**Ş.Şabanov**. Lehinə 19 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim.

**Ş.Şabanov**. Lehinə 19 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin qalan üç məsələsi, yəni 5-ci, 6-cı və 7-ci məsələlər də cənab Prezidentin bir məktubu ilə daxil olub. Gündəliyin 5-ci məsələsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, 6-cı məsələsi "Qeyri-hökumət təşkilatları, (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə, 7-ci məsələsi isə "Qrant haqqında" Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə qanun layihələridir. Bu qanun layihələri də məzmun və mahiyyətcə yaxındır, əgər etiraz etmirsinizsə, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli hər üç layihə haqqında ümumi məlumat versin. Fəzail müəllim, buyurun.

**F.İbrahimli,** *Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli Məclis iştirakçıları! Əziz deputatlar, hər üç qanun layihəsi üçüncü oxunuşun bütün tələblərinə cavab verdiyi üçün, təklif edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Həmişə olduğu kimi, konkret. Qanun layihələrinə Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasəti, sənaye və sahibkarlıq komitələrində də baxılıb. Bu komitələrdən kimin sözü var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Sualı olan, çıxış eləmək istəyən də yoxdur. Ona görə də mən qanun layihələrini ardıcıl səsə qoyuram. Beləliklə, hörmətli həmkarlar, xahiş edirəm, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, vəziyyət necədir?

**Ş.Şabanov**. Lehinə 20 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, "Qeyri-hökumət təşkilatları", (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda səsə qoymaq istəyirəm. Xahiş edirəm, qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim, Sizdə vəziyyət necədir?

**Ş.Şabanov**. Lehinə 20 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə hörmətli həmkarlar, xahiş edirəm, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Şakir müəllim.

**Ş.Şabanov**. Lehinə 20 nəfər səs vermişdir.

**Sədrlik edən.** Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, həm iclasımızın, həm də növbədənkənar sessiyamızın gündəliyinə daxil olan məsələlər başa çatdı. Mən bildirmək istəyirəm ki, növbədənkənar sessiya dövründə Milli Məclisin 8 iclası keçirilmiş, 35 qanun və qərar qəbul edilmişdir. Əminəm ki, bu qanunvericilik aktları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən hərtərəfli islahatların, quruculuq işlərinin hüquqi bazasını daha da möhkəmləndirməyə və təkmilləşdirməyə kömək edəcəkdir.

Qeyd edim ki, bu dövrdə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlər də görülmüşdür. Pandemiya dövrünün şərtləri nəzərə alınmaqla, xaricdəki həmkarlarımızla videokonfrans formatında bir sıra görüşlər keçirilmiş və danışıqlar aparılmışdır.

İnanıram ki, həm yaz sessiyasında, həm də növbədənkənar sessiyada görülmüş işlər gələn sessiyanın da uğurlarına möhkəm zəmin yaratmışdır. Mən səmərəli fəaliyyət üçün hamınıza təşəkkür edirəm.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qərarı ilə hər il iyunun 30-da Beynəlxalq parlamentarizm günü qeyd edilir. Bu gün biz qürurla söyləyə bilərik ki, Azərbaycan xalqının zəngin parlamentarizm ənənələri vardır və dünya miqyasında parlamentarizmin inkişafına xalqımız da dəyərli töhfələr vermişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, eləcə də bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan

xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərmişdir. Azərbaycan parlamenti öz fəaliyyətini demokratik prinsiplər əsasında qurmuşdu. Dünyada birincilər sırasında və Şərq aləmində ilk dəfə olaraq bu parlament qadınlara seçki hüququ vermişdi.

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən sonra digər dövlət orqanları kimi onun parlamenti də ləğv edilmişdir. Sovet hakimiyyəti dövründə qanunvericilik orqanı məhdud səlahiyyətlərə malik olmuşdur. Lakin belə bir şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrini qoruyub saxlaya bilmişdir. Sovet İttifaqının tərkibində Azərbaycan müstəqil dövlət olmasa da, həmin dövr gələcək dövlət müstəqilliyi üçün əsasların formalaşması baxımından mühüm rol oynamışdır.

Xüsusən dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə Azərbaycanda nəhəng quruculuq və yaradıcılıq dövrü yaşanmışdır. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə Azərbaycanın böyük sosial-iqtisadi və intellektual potensialı var idi.

Çox təəssüf ki, müstəqilliyin ilk illərində xalqımız ağır böhran və sarsıntılarla üzləşərək çıxılmaz vəziyyətə düşmüşdü. Azərbaycan Respublikası XX əsrin əvvəllərində mövcud olmuş müstəqil dövlətimizin aqibətini yaşamaq təhlükəsi qarşısında idi. Lakin 1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı parçalanıb dağılmaqdan və müstəqil dövlətimizi məhv olmaqdan xilas etdi.

Qeyd etmək lazımdır ki, ulu öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlanmışdır. Heydər Əliyev 1993-cü ilin oktyabrında

Prezident seçilənədək 4 ay parlamentə rəhbərlik etmişdir. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları  məhz bu dövrdə və bu binada başlamışdır. Heydər Əliyevin Azərbaycan parlamentinin Sədri seçilməsi ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırmış və onun peşəkar nümayəndəli orqan kimi formalaşdırılması istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir.

Müstəqil dövlətimizin 1995-ci ildə qəbul edilən  Konstitusiyası əsasında səmərəli idarəçilik mexanizmi qurulmuş, hüquqi dövlətin əsas atributlarından olan real hakimiyyət bölgüsü həyata keçirilmiş, peşəkar parlament – Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırılmışdır.

Ötən dövrdə Azərbaycan parlamenti ölkədə həyata keçirilən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, geniş miqyaslı siyasi, iqtisadi, sosial və hüquqi islahatların qanunvericilik bazasını təmin etməyə nail olmuş, Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün əsaslı zəmin yaratmışdır. Milli Məclis bir çox ölkələrin parlamentləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmuş, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının parlament məclislərinin fəal üzvü olmuşdur.

Hörmətli həmkarlar, bu gün dünyanın tanınmış siyasi liderləri və dövlət başçıları sırasında layiqli yer tutan möhtərəm Prezidentimiz İlham Əliyev ölkəmizdə parlamentarizm ənənələrinin inkişafına böyük töhfələr vermişdir. Cənab İlham Əliyev 8 il Azərbaycan parlamentinin deputatı olmuşdur. O, Avropa Şurasının Parlament Assambleyasında nümayəndə heyətimizə uğurla rəhbərlik etmiş, Parlament Assambleyası Sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. Məhz həmin dövrdə bu təşkilat Azərbaycanın haqq

işini dəstəkləyən bir neçə sənəd qəbul etmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev Milli Məclisin fəaliyyəti ilə bağlı məsələləri dərindən bildiyinə görə qanunvericilik orqanına çox böyük diqqət, qayğı və hörmət göstərir. Dövlət başçısı Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun olan çoxsaylı qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Azərbaycan parlamentində qanunyaratma və qanunvericilik fəaliyyətinin daha da təkmilləşməsi üçün görülən tədbirlər dövlət başçısı tərəfindən qətiyyətlə dəstəklənir.

Hörmətli həmkarlar, ölkəmizdə parlamentarizm ənənələrinin inkişafından danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməlidir. Mehriban xanım 12 ilə yaxın müddət ərzində bizim həmkarımız olmuş, deputat kimi xalqımıza və dövlətimizə xidmət etmişdir. O, ölkəmizdə parlament mədəniyyətinin inkişafında mühüm rol oynamış, dövlətimizin qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak etmişdir.

Mehriban xanım bir sıra qanunların təşəbbüsçüsü, o cümlədən 4 amnistiya aktının müəllifidir. O, Milli Məclisin beynəlxalq əlaqələrinin möhkəmlənməsi üçün çox işlər görmüş, Azərbaycan parlamentini xaricdə layiqincə təmsil etmişdir.

Hörmətli həmkarlar, bu gün Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla yerinə yetirir. 100 il öncə Azərbaycan Xalq Cümhuriyyəti qurucularının yaratdıqları dövlətçilik və parlamentarizm ənənələri indiki Azərbaycan Respublikası dövlətinin və parlamentinin fəaliyyətində layiqincə davam və inkişaf etdirilir.

Düşünürəm ki, Azərbaycanda parlamentarizm ənənələrinin inkişafı sahəsində keçilmiş yola və görülmüş işlərə məhz bu gün nəzər salmağın real əsası və rəmzi mənası vardır.

Hörmətli həmkarlar, Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsi ilə Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi Beynəlxalq parlamentarizm gününə həsr edilən videoçarx hazırlamışlar. Mən sizi bu videoçarxa baxmağa dəvət edirəm.

*(Beynəlxalq parlamentarizm gününə həsr olunan videoçarx nümayiş etdirilir.)*

Hörmətli həmkarlar, icazə verin, Beynəlxalq parlamentarizm günü münasibəti ilə sizin hamınızı ürəkdən təbrik edim və hər birinizə möhkəm can sağlığı, parlament fəaliyyətində uğurlar arzulayım.

Hörmətli həmkarlar, beləliklə, Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***30 iyun 2020-ci il***

**Ramil Həsən.** Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dünya Bankının rəhbərləri ilə keçirdiyi videokonfransda Azərbaycanda mövcud su problemi və müasir innovativ texnologiyadan istifadə olunaraq müxtəlif formalarda suyun istehsalı, əhalinin içməli və suvarma suyu ilə tələbatı ilə bağlı atılması gərəkən vacib addımlardan bəhs etmişdir.

Bu istiqamətdə, xüsusilə vurğulamaq istərdim ki, bilavasitə Azərbaycan şirkəti olan "AKELİK GROUP" tərəfindən artıq bir neçə ildir müxtəlif innovativ və kosmik texnologiyalardan istifadə olunaraq Gürcüstanda, Moldovada, Tacikistanda və Avropanın bir çox ölkələrində çirkab suların təmizlənərək maksimal dərəcədə, eləcə də istehsalda və ya içməli su kimi istifadə olunması, eyni zamanda, məişət tullantılarından alternativ enerji mənbəyi kimi istifadə olunması və zərərli qazların havaya buraxılmadan saxlanılaraq enerji mənbəyi kimi istixanalarda təkrar istifadəsi ilə bağlı irimiqyaslı bir proqram hazırlanmışdır. Bu da Dünya Bankı, bir çox beynəlxalq təşkilatlar, maliyyə qurumları tərəfindən dəstəklənir. Əlbəttə, bu, eyni zamanda, dövlət büdcəsinə milyonlarca qənaət, həmçinin mövcud su probleminin ortadan qaldırılması, enerji mənbələrinin daha ucuz şəkildə təmin olunması kimi bir çox məsələləri özündə ehtiva etməkdədir. Belə bir layihənin Azərbaycanda da tətbiqi minlərcə insanın yeni iş yerləri ilə təminatına kömək edəcəkdir. Mən bu minvalla bu məsələni burada qaldırmaq istəyərdim.

Layihənin adını bilavasitə sizlərlə paylaşmaq istəyirəm:

“Distillə olunmuş su və torfabənzər minerallarla zəngin qruntun istehsalı” – layihənin adı belədir. Vurğulamaq istədiyim xüsusi bir nüans var. Bu layihə, eyni zamanda, dünyada mövcud olan ekoloji və sosial problemlərin həlli yönündə layihələrin hazırlanmasında Azərbaycan şirkətinin müstəsna rolunu da ortaya çıxarmışdır ki, bu gün İsrail kimi bir çox ölkələr buna bənzər layihələrdən istifadə edirlər. O layihələrdən ikiqat daha güclü olan və daha az maliyyə vəsaiti tələb edən yuxarıda qeyd etmiş olduğum istiqamətli layihənin müəllifi Azərbaycan şirkəti “AKELİK GROUP”-dur ki, keçən dəfə də mənim həmkarım Müşfiq müəllimin burada dediyi kimi, bu, Gürcüstanda, şəxsən bildiyim qədər Moldovada, orta Asiyanın bir çox ölkələrində tətbiq olunan yeni innovativ bir layihədir.

Bu layihə çərçivəsində sizinlə bölüşmək istədiyim nədir? Misal üçün, Bakı şəhərində günlük kanalizasiyaya axıdılan suyun həcmi, yəni çirkab sular bir milyon yarım kubmetrdir. Təsəvvür edin ki, bir milyon yarım kubmetr su bütün müasir kosmik və innovativ texnologiyalar tətbiq edilərək distillə su halına gətirilir. Azərbaycan hökumətinin verəcəyi qərara görə, bu su suvarma sistemindən İsraildə və bir çox ərəb ölkələrində olduğu kimi, içməli su kimi istifadə oluna bilər.

Bununla yanaşı, enerji istehsalında və onun istehlakında məişət tullantılarından istifadə olunur ki, bu da bütün Azərbaycanda toplanılan məişət tullantılarının bu texnologiyaların tətbiq edilməsi ilə alternativ enerjiyə çox böyük bir dəstək verməsinə, yaradılan bu alternativ enerji vasitəsi ilə həm ekoloji cəhətdən təmiz, həm də ucuz qiymətə enerjinin istehsalına və istehlakına ciddi şərait yaradır. Bu da, əlbəttə ki, mövcud maya dəyərindən, hətta İsraildəki mövcud maya dəyərindən 3-4 dəfə daha ucuz qiymətə

olan belə bir layihənin tətbiqinə şərait yaradır.

Burada, eyni zamanda, bərk məişət, sənaye və kənd təsərrüfatı tullantılarının təkrar istifadəsi prosesində alınan istilik enerjisi hesabına vakuum buxarlanma və kavid ferment texnologiyalarının tətbiqi ilə çirkab sularının təmizlənməsindən söhbət gedir ki, bu da distillə suyun alınması və torfabənzər minerallarla zəngin qruntun istehsalına şərait yaradır. Yəni bu torfabənzər minerallarla zəngin qruntun istehsalı da nəticə etibarı ilə suyun yenidən içməli su formatına salınmasına tam şərait yaradır. Bu, Azərbaycanın dövlət büdcəsinə 100 milyonlarca qənaətin hesablanması deməkdir. Bunu mütəxəssislər daha yaxşı bilirlər.

Fürsətdən istifadə edərək qeyd etmək istərdim ki, mən bilavasitə susuzluqdan əziyyət çəkən bölgədən seçildiyim üçün ciddi araşdırmalar aparıram. Bu araşdırmaların nəticəsində də Azərbaycan şirkəti olan "AKELİK GROUP"-un bu sahədə ciddi addımlar atdığını, qonşu Gürcüstanda artıq uğurlu layihələr həyata keçirdiyini və Gürcüstanın infrastruktur naziri və Baş naziri tərəfindən xüsusi təqdirəlayiq görüldüyünü vurğulamaq istəyirəm. Bu, Azərbaycan hökumətinə artıq təqdim olunmuşdur. Bu layihə bilavasitə cənab Prezidentin xüsusilə vurğulamış olduğu müasir innovativ texnologiyalardan istifadə olunaraq Azərbaycanda su probleminin birdəfəlik həllinə, eyni zamanda, alternativ enerji mənbələrindən istifadə olunmaqla, məişət tullantılarının enerjiyə çevrilməsi və bundan da istehsalda, istixana texnologiyalarından istifadə olunmasına, havaya buraxılan zərərli qazların tutularaq enerji mənbəyi kimi istifadə olunmasına çox böyük kömək edəcək bir layihədir. Azərbaycan hökumətini bu şirkətin hazırlamış olduğu layihəyə diqqət göstərməyə, bu məsələni diqqətlə incələ-

məyə, araşdırmağa çağırıram. Əminəm ki, ölkə rəhbərimizin qeyd etdiyi müasir innovativ texnologiyalardan istifadə ilə bağlı milli şirkətimizin hazırladığı bu layihə mütəxəssislər tərəfindən yüksək qiymətləndiriləcək və nəhayət, Azərbaycanda susuzluq, içməli və suvarma suyu ilə bağlı regionlarımızda mövcud olan təbii problemin ortadan qaldırılmasına böyük dəstək verəcək, eyni zamanda, on minlərcə yeni iş yerinin açılmasına təkan verəcək, xüsusilə bu çətin iqtisadi böhran proseslərində Azərbaycanın dövlət büdcəsinə külli miqdarda qənaət olunmasına köməklik göstərəcəkdir. Çox sağ olun.